EUROPEAN QUALIFIERS

# OYUN PROQRAMI



## Səlahət Ağayev *ilə müsahibə*

\+ *imzalı şəkli*

Azərbaycan

İsveç

16.11.2023 | Tofiq Bəhramov adına Respublika stadionu

*yükləmək üçün klik et*



# MÜNDƏRİCAT


6 AZƏRBAYCAN MİLLİ KOMANDASI
10 AZƏRBAYCAN MİLLİ KOMANDASININ HEYƏTİ
12 İSVEÇ MİLLİ KOMANDASI
14 AZƏRBAYCAN VƏ İSVEÇ MİLLİ KOMANDALARININ ƏVVƏLKİ GÖRÜŞLƏRİ
15 HAKİMLƏR ÜÇÜN SEMİNAR KEÇİRİLİB
15 “D” KATEQORİYALI MƏŞQÇİ KURSLARINA YEKUN VURULUB
17 MAQSUD ADIGÖZƏLOV KLUBLAR KOMİTƏSİNİN SƏDRİ SEÇİLİB
17 UEFA A KURSU I MODULU KEÇİRİLİB
18 “AFFA REGİON LİQASI”NIN PÜŞKÜ ATILIB
18 “AZƏRİ” KOMANDASI “PAYIZ TURNİRİ”NİN QALİBİ OLUB
22 SƏLAHƏT AĞAYEV İLƏ MÜSAHİBƏ
27 “ELITE CLUB PROGRAMME” TƏHSİL LAYİHƏSİNƏ START VERİLİB
28 “PLAYMAKERS” LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ SEMİNAR KEÇİRİLİB
28 AZƏRBAYCAN KUBOKUNUN PÜŞKÜ ATILIB
29 AFFA-NIN TƏŞKILATÇILIĞI İLƏ TƏRBİYƏ MÜƏSSİSƏSİNDƏ YOLDAŞLIQ OYUNU KEÇİRİLİB
29 “ARAZ NAXÇIVAN” “ZƏFƏR” TURNİRİNİN QALİBİ OLUB
30 “QOL U-15” II BEYNƏLXALQ TURNİR START GÖTÜRÜB
30 MƏŞQÇİLƏRİMİZ “FƏNƏRBAĞÇA” KLUBUNUN AKADEMİYASINDA OLUBLAR
30 AFFA TƏŞƏKKÜR EDİR



Azərbaycan, Bakı AZ 1025,
8 Noyabr prospekti, 163
Tel: +99412 404 2777
Faks: +99412 404 2772
info@affa.az
www.affa.az



*AZƏRBAYCAN - İSVEÇ*
*OYUNUNUN RƏSMİ PROQRAMI*
*Azərbaycan Futbol Federasiyaları Assosiasiyası*

*Buraxılışa məsul şəxs:*
*Elnur Məmmədli, Arif Bayramov*
*Redaktor:*
*Rasim Mövsümzadə, Törə Əhmədova, Etibar Tağıyev*
*Dizayner:*
*Kənan Şabanov*
*Şəkillər:*
*Qənbər Cəlilov, Mirzə Ələkbərov, AFFA-nın arxivi, Google*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

**Sözlər: Əhməd Cavad**
**Müsiqi: Üzeyir Hacıbəyov**



AFFA

PAŞA Sığorta

Rahatlığınıza Zəmanət




**GÜCÜMÜZÜ DƏYƏRLƏRİMİZDƏN ALIRIQ!**

# AZƏRBAYCAN
## MİLLİ KOMANDASI

### ƏN BÖYÜK HESABLI QƏLƏBƏLƏRİ:
Azərbaycan – Lixtenşteyn 4:0 (05.06.1999)
Azərbaycan – San Marino 5:1 (04.09.2017)

### FIFA-NIN REYTİNQİNDƏ:
Hazırkı mövqeyi: 120-ci yer (26.10.2023)

### DÜNYA VƏ AVROPA ÇEMPİONATLARININ SEÇMƏ MƏRHƏLƏSİNDƏ
Ən yaxşı nəticəsi: qrupda 4-cü yer (DÇ-2014)

### DÜNYA VƏ AVROPA ÇEMPİONATLARININ SEÇMƏ MƏRHƏLƏSİNDƏ, UEFA MİLLƏTLƏR LİQASINDA QAZANILAN QƏLƏBƏLƏR

| | | | | |
|---|---|---|---|---|
| 31.08.1996, DÇ-1998 | Azərbaycan | 1:0 | İsveçrə | Bakı |
| 05.06.1999, AÇ-2000 | Azərbaycan | 4:0 | Lixtenşteyn | Bakı |
| 05.06.2001, DÇ-2002 | Azərbaycan | 2:0 | Slovakiya | Bakı |
| 11.06.2003, AÇ-2004 | Azərbaycan | 2:1 | Serbiya və Monteneqro | Bakı |
| 28.03.2007, AÇ-2008 | Azərbaycan | 1:0 | Finlandiya | Bakı |
| 10.10.2009, DÇ-2010 | Lixtenşteyn | 0:2 | Azərbaycan | Vaduz |
| 12.10.2010, AÇ-2012 | Azərbaycan | 1:0 | Türkiyə | Bakı |
| 06.09.2011, AÇ-2012 | Azərbaycan | 3:2 | Qazaxıstan | Bakı |
| 11.10.2013, DÇ-2014 | Azərbaycan | 2:0 | Şimali İrlandiya | Bakı |
| 28.03.2015, AÇ-2016 | Azərbaycan | 2:0 | Malta | Bakı |
| 04.09.2016, DÇ-2018 | San Marino | 0:1 | Azərbaycan | Serravalle |
| 08.09.2016, DÇ-2018 | Azərbaycan | 1:0 | Norveç | Bakı |
| 04.09.2017, DÇ-2018 | Azərbaycan | 5:1 | San Marino | Bakı |
| 11.10.2018, ML-2019 | Farer adaları | 0:3 | Azərbaycan | Torshavn |
| 17.11.2018, ML-2019 | Azərbaycan | 2:0 | Farer adaları | Bakı |
| 08.09.2020, ML-2021 | Kipr | 0:1 | Azərbaycan | Nikosiya |
| 13.06.2022, ML-2023 | Azərbaycan | 2:0 | Belarus | Bakı |
| 22.09.2022, ML-2023 | Slovakiya | 1:2 | Azərbaycan | Trnava |
| 25.09.2022, ML-2023 | Azərbaycan | 3:0 | Qazaxıstan | Bakı |
| 13.10.2023, AÇ-2024 | Estoniya | 0:2 | Azərbaycan | Tallinn |


Yeni üfüqlər
SOCAR

# AZƏRBAYCAN MİLLİSİNİN BAŞ MƏŞQÇİSİ

# CANNİ DE BYAZİ



67 yaşı var, italiyalıdır.

Futbolçu kimi yarımmüdafiəçi mövqeyində çıxış edib.

A seriyasında “Pescara” (1977/78) və “Brescia” (1980/81) klublarının formasını geyinib, 52 oyunda 2 qol vurub.

Məşqçi karyerasına 1990-cı ildə başlayıb. A seriyasında “Modena” (2002/03), “Brescia” (2003-2005), “Torino” (2007, 2008) və “Udinese”yə (2009/10) rəhbərlik edib.

“Brescia” ilə 2003-cü ildə İntertoto kubokunda iştirak edib.

Həmçinin İspaniyanın “Levante” (2007/08) və “Alaves” (2017/18) klublarında baş məşqçi olub.

2011-2017-ci illərdə Albaniya millisini çalışdırıb.

Onun rəhbərliyilə 54 oyun keçirən Albaniya komandası Avro-2016-ya vəsiqə qazanıb və orada qrupda 3-cü yeri tutub.

2001-ci ildə İtaliyada “Gümüş skamya”, 2015-ci ildə isə “Xüsusi qızıl skamya” mükafatlarına layiq görülüb.

2020-ci ilin iyul ayından Azərbaycan millisinin baş məşqçisidir.




ENERJİNİ
QƏBUL ET
TAM ELEKTRİK
MG4
5 İL VƏ YA
150 000 KM ZƏMANƏT
FOR SAFER CARS
EURO NCAP
TEST 2022

Azərbaycan milli komandasının heyəti



1. Şahrudin Məhəmmədəliyev
2. Yusif İmanov
3. Rəşad Əzizli
4. Aleksey İsayev
5. Amin Seydiyev
6. Anton Krivotsyuk
7. Bəhlul Mustafazadə
8. Cəlal Hüseynov
9. Coşqun Diniyev
10. Eddi İsrafilov
11. Elvin Camalov
12. Elvin Cəfərquliyev
13. Emil Səfərov
14. Emin Mahmudov
15. Höccət Haqverdi
16. Mahir Emreli
17. Musa Qurbanlı
18. Nəriman Axundzadə
19. Ozan Can Kökçü
20. Qismət Alıyev
21. Rahil Məmmədov
22. Ramil Şeydayev
23. Renat Dadaşov
24. Rüstəm Əhmədzadə
25. Səbuhi Abdullazadə
26. Toral Bayramov
27. Turan Manafov

MƏLHƏM
INTERNATIONAL HOSPITAL

# İSVEÇ
# MİLLİ KOMANDASI

**İLK OYUNU:**
İsveç – Norveç 11:3 (12.07.1908)

**ƏN BÖYÜK HESABLI QƏLƏBƏLƏRİ:**
İsveç – Latviya 12:0 (29.05.1927)
İsveç – Cənubi Koreya 12:0 (05.08.1948)

**ƏN BÖYÜK HESABLI MƏĞLUBİYYƏTİ:**
Böyük Britaniya - İsveç 12:1 (20.10.1908)

**DÜNYA ÇEMPİONATLARINDA:**
İştirakı: 12 dəfə
Ən yaxşı nəticəsi: 2-ci yer (1958)

**AVROPA ÇEMPİONATLARINDA:**
İştirakı: 7 dəfə
Ən yaxşı nəticəsi: yarımfinal (1992)

**FIFA REYTİNQİNDƏ:**
Hazırkı mövqeyi: 23-cü yer (26.10.2023)
Ən yüksək mövqeyi: 2-ci yer (noyabr 1994)
Ən aşağı mövqeyi: 45 (mart 2015, oktyabr-noyabr 2015, mart 2017)

**REKORDÇULAR:**
Ən çox milli olan oyunçusu:
Anders Svensson – 148 oyun (1999–2013)
Ən məhsuldar oyunçusu:
Zlatan Ibrahimoviç – 62 qol (2001–2023)

# İsveç milli komandasının heyəti

**Qapıçılar:** Viktor Yohansson, Kristofer Nordfeldt, Robin Olsen;

**Müdafiəçilər:** Lüdviq Aqustinson, Filip Helander, Emil Holm, Emil Kraft, Viktor Nilsson Lindelöf, Ken Sema, Karl Starfelt, Vinus Valqvist Eqnell;

**Yarımmüdafiəçilər:** Yens Kajust, Viktor Kleason, Albin Ekdal, Antoni Elanqa, Emil Forsberq, Samuel Qustafson, Viktor Qyökeres, Yesper Karlsson, Seyan Kuluşevski, Huqo Larsson;

**Hücumçular:** Kristoffe Olsson, Robin Qvayson, Markus Roden, Mattias Svanberq.

# İSVEÇ MİLLİSİNİN BAŞ MƏŞQÇİSİ

# YANNE ANDERSSON



İsveçlidir, 61 yaşı var.

Futbolçu kimi hücumçu mövqeyində çıxış edib və karyerasının böyük hissəsini İsveçin aşağı divizion klubu “Alets”də keçirib.

İsveçin “Halmstad” (2004–2009), “Örgryte” (2010) və “IFK Norrköping” (2011–2016) klublarının baş məşqçisi olub, sonuncu ilə 2015-ci ildə ölkə çempionluğunu qazanıb.

2016-cı ildən İsveç millisinin baş məşqçisidir.

Onun rəhbərliyilə isveçlilər DÇ-2018-də 1/4 finala, AÇ-2020-də 1/8 finala çıxıb, DÇ-2022 və AÇ-2024-ə vəsiqə qazana bilməyiblər.



# Azərbaycan və İsveç milli komandalarının əvvəlki görüşləri və maraqlı faktlar

## ƏVVƏLKİ GÖRÜŞLƏRİ

Azərbaycan və İsveç milli komandaları bundan əvvəl yalnız DÇ-2002 seçmə mərhələsi çərçivəsində eyni qrupda mübarizə aparıblar.
O vaxt hər iki oyunda isveçlilər qalib gəliblər – 1:0 (Bakıda) və 3:0. Maraqlıdır ki, sonuncu İsveçin 2001-ci ildə, ümumiyyətlə, ardıcıl 11-ci qələbəsi idi ki, bu da komandanın tarixində rekord göstəricidir.
Nəhayət, Avro-2024 seçmə mərhələsinin F qrupunda mübarizə aparan rəqiblərin 27 mart 2023-cü ildə Solna "Friends Arena"da keçirilən matçı da İsveç komandasının qələbəsi ilə nəticələnib – 5:0.

## Bilirsinizmi?

***

2000-ci ildən başlayaraq ardıcıl 6 Avropa çempionatında çıxış etmiş İsveç millisi AÇ-2024-ün seçmə mərhələsində isə qrupda Belçika və Avstriyanı irəli buraxaraq qitə yarışına vəsiqə qazana bilməyib.
Yeri gəlmişkən, isveçlilər Avropa çempionatı final turnirində ev sahibi olduqları AÇ-1992-də debüt edib və elə həmin yarışda yarımfinala çıxa biliblər.

***

AÇ-2004-də Bolqarıstan komandasına 5:0 hesabı ilə qalib gələn İsveç millisi Avropa çempionatları final turnirində ən böyük hesablı beş qələbədən (hamısı – beş top fərqi ilə) birinə imza atıb.

***

Baş məşqçi kimi 4 Avropa çempionatına qatılan isveçli Lars Lagerback (İsveçlə AÇ-2000, AÇ-2004, AÇ-2008 və İslandiya ilə AÇ-2016) bu göstəricidə iki rekordçudan biri, hakim kimi 3 Avropa çempionatına qatılan Anders Frisk (AÇ-1996, AÇ-2000 və AÇ-2004) isə bu göstəricidə dörd rekordçudan biridir.



# Oyunu idarə edəcək hakimlər

**Baş hakim:** Esther Staubli
**Baş hakinin köməkçiləri:** Jonas Erni, Susanne Küng
**Dördüncü hakim:** Mirel Turkes
**VAR:** Lukas Fahndrich
**AVAR:** Lionel Tschudi
(Hakimlər briqadası İsveçrədəndir)

# Hakimlər üçün seminar keçirilib

AFFA tərəfindən "Hyatt Regency Baku" hotelində Elit və I dərəcəli hakimlər üçün seminar keçirilib. AFFA-nın Hakimlər Komitəsinin sədri Barış Şimşekin rəhbərliyi ilə təşkil olunan seminarda köməkçi hakimlərlə çalışan türkiyəli mütəxissis Tarık Ongun də iştirak edib.





# "D" kateqoriyalı məşqçi kurslarına yekun vurulub

AFFA-nın təşkilatçılığı, UEFA-nın dəstəyi ilə keçirilmiş "D" kateqoriyalı məşqçi kurslarına yekun vurulub. Qusar Olimpiya İdman Kompleksində üç gün ərzində təşkil olunmuş kursun sonuncu günündə iştirakçılara müvafiq lisenziyalar təqdim edilib. Lisenziyaları iştirakçılara Kütləvi Futbol Departamentinin rəhbəri Fərrux İsmayılov, AFFA-nın məşqçi kurslarının təlimatçıları İlham Əzizzadə və Dəyanət Əliyev birlikdə təqdim edib.










SAĞLAM BƏDƏNDƏ
SAĞLAM SU OLAR!
Ca
Mg
K
AQUAVITA
STILL
0.5 L
Legendary Water from Caucasus
TAC MMC
+994 50 225 27 67
+994 12 346 22 91/92
AQUAVITA
AFFA
MILLI KOMANDANIN RƏSMI TƏRƏFDAŞI

# Maqsud Adıgözəlov Klublar Komitəsinin sədri seçilib

AFFA-nın inzibati binasında Klublar Komitəsinin növbəti iclası keçirilib. İclasda AFFA-nın baş katibi Sərxan Hacıyev, PFL-in prezidenti Elxan Səmədov və Misli Premyer Liqasında mübarizə aparan klubların nümayəndələri iştirak ediblər. Klublar Komitəsinin Əsasnaməsinə uyğun olaraq, komitənin sədri vəzifəsinə seçki keçirilib. "Sabah" klubunun prezidenti Maqsud Adıgözəlov səs çoxluğu ilə Klublar Komitəsinin sədri seçilib. İclasda digər məsələlər müzakirə olunub





# UEFA A kursu I modulu keçirilib

AFFA-nın Təhsil və Reabilitasiya Mərkəzində UEFA A kateqoriyalı məşqçi kursunun I moduluna start verilib. Təlimatçılar Aslan Kərimov və Osman Rəhimovun rəhbərliyi altında keçirilmiş kursa oktyabrın 26-dək yekun vurulub. Kurs fasilələrlə 6 ay davam edəcək.







# “AFFA Region Liqası”nın püşkü atılıb

AFFA-nın inzibati binasında “AFFA Region Liqası”nın 2023/2024-cü illər mövsümünün püşkü atılıb. Tədbirdə AFFA-nın vitse-prezidenti Vaqif Sadıqov, AFFA İcraiyyə Komitəsinin üzvü, Regional Futbol Federasiyaları İctimai Birliyinin prezidenti İsgəndər Cavadov və Azərbaycan Həvəskarlar Futbolu Federasiyasının prezidenti Rüfət Əmirov iştirak ediblər. Yarışın qalibi UEFA Region Kubokunda iştirak hüququna yiyələnəcək. Həmçinin çempion komanda II Liqada iştirak hüququ əldə edəcək. İkinci yerin sahibi isə II Liqada sonuncudan əvvəl yeri tutan komanda ilə pley-off oyunu keçirəcək. AFFA Region Liqasının oyunları 4 regionu əhatə edəcək - Paytaxt və Şimal, Mərkəz, Şimal-Qərb və Qərb və Cənub. Liqada ümumilikdə 40 komanda mübarizə aparacaq.







# “Azəri” komandası “Payız turniri”nin qalibi olub

AFFA-nın dəstəyi, Əlillər Futbolu Federasiyasının təşkilatçılığı Bakı İdman Sarayında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş eşitməqüsurlu əlillər arasında keçirilən futzal üzrə “Payız turniri” başa çatıb. “Azəri” komandası turnirin qalibi olub. “Ümid” və “Bakı” komandaları isə müvafiq olaraq 2-ci və 3-cü yeri tutub. “Bakı” komandasından Sənan Ağayev turnirin ən yaxşı oyunçusu, “Ümid”dən Sənan Mirzəzadə isə ən yaxşı qapıçı seçilib. Turnirin ən məhsuldar oyunçusu 13 qol vuran “Azəri” komandasının üzvü Nihad Qarayev olub. Sonda komandalara medallar, diplomlar və kubok təqdim olunub.







Əmlak sığortası

# Zamanı geri qaytarmaq mümkün deyil,

# bəs zərəri necə?



Əmlak sığortası
əldə etmək
**üçün skan et:**

*7000
www.pasha-insurance.az

PAŞA Sığorta
Rahatlığınıza Zəmanət

# Milli komandanın *posteri*

*yükləmək üçün klik et*




Yeni üfüqlər
SOCAR

# SƏLAHƏT AĞAYEV

*ilə müsahibə*

## "...İNDİ AVROPA KLUBLARININ FORMASINI GEYİNİRDİM"




**- Dünyada müxtəlif idman növləri var. Niyə məhz futbolu seçdin?**
- Hər kəsdə olduğu kimi mənim də futbola həvəsim uşaq vaxtlarımdan yaranıb. Daha doğrusu qapıda dayanmağı daha çox istəyirdim. Elə o vaxtdan qapıçı kimi formalaşmağa başladım.

**- Bəs niyə məhz qapıçı?**
- Bunun konkret səbəbi yoxdur. Çərçivədə dayanmaq daha xoş gəlirdi.

**- İndiyədək aşağı yaş qrupları üzrə milli komandaların, müxtəlif klubların formasını geyinmisən. Karyeran ərzində hansı ili və ya mövsümü özün üçün daha uğurlu hesab edirsən?**
- Ümumiyyətlə, ölkə səviyyəsində uğurlu karyeram olduğunu düşünürəm. Ancaq hansısa ili fərqləndirmək gərəkirsə, "Sumqayıt"dan sonra "İnter"ə keçdiyim mövsümü qeyd edə bilərəm. Avrokuboklarda mübarizə apardım, klubun kapitanı oldum. "İnter"dən sonra "Neftçi"də və "Qəbələ"də uğurlu mövsüm keçirdim. Hətta "Qəbələ" klubu ilə ölkə kubokunun qalibi oldum.

**- Ölkəmizdə və Dünyada bəyəndiyin qapıçı kimdir və hansı xüsusiyyətlərinə görə onları qiymətləndirirsən?**
- Ölkəmizdə bəyəndiyim qapıçılar çoxdur. Ancaq ad çəkməyim etik cəhətdən düz olmazdı. Dünyada bir çox böyük qapıçılar var ki, onlar çıxışları ilə, əldə etdikləri uğurlarla, qazandıqları kuboklarla özlərini təsdiqləyiblər. Ad çəkmək lazımdırsa, David De Xeanı qeyd edərdim. Çox gözəl reaksiyalar verir. Oyun üslubuna görə De Xeanı vurğulayardım. Ondan başqa, Manuel Noyeri, Tibo Kurtuanı çox bəyənirəm.

## “QAPIÇI İŞİNƏ CİDDİ YANAŞMALI VƏ STABİL ÇIXIŞ ETMƏLİDİR”

**- Bir qapıçıda mütləq olmalıdır dediyin xüsusiyyət və ya bacarıq nədir?**
- Məncə, bir qapıçı işinə ciddi yanaşmalı və stabil çıxış etməlidir. Sabit çıxış edən qapıçı daha çox diqqət mərkəzində olur.

**- Karyeran ərzində ən unudulmaz qurtarışın hansıdır?**
- “Neftçi”də çıxış edərkən çempionluğa oynayırdıq. Son turlarda “Keşlə” ilə qarışılaşırdıq. Yaxın məsafədən rəqibin baş zərbəsini dəf etmişdim. O qurtarışı qeyd edə bilərəm.

**- Bir qapıçı kimi ən zəif cəhətinin nədir?**
- Bu barədə nəsə deməyim düz olmaz. Yaxşı olar ki, mütəxəssislər fikir bildirsinlər. Təbii ki, hər qapıçı kimi mənim də zəif cəhətlərim var Zəif cəhətlərim olmsaydı, indi Avropa klublarının formasını geyinirdim.

**- Adətən hər futbolçunun bir inancı, ritualı olur. Sənin belə bir inancın, ritualın var?**
- Bir çox futbolçudan, qapıçıdan fərqli olaraq mənim belə inancım yoxdur.

## “BİR İNSAN VAR Kİ, ONU XÜSUSİLƏ QEYD ETMƏLİYƏM”

**- Penalti epizodunda bir qapıçının üstün və zəif cəhətləri nələrdir?**
- Penalti epizodunda əsas üstünük oyunçuda olur. Unutmayaq ki, o dueldən oyunçunun qalib ayrılmaq ehtimalı daha yüksəkdir. Qapıçının yeganə üstünlüyü odur ki, qol buraxsa da, heç kim heç nə deməyəcək. Ancaq penaltini dəf etsə, qəhrəman olacaq. Şans cəhətdən oyunçu üstün olsa

SALAHAT AGHAYEV


Mad
Ready
Anywhere.
Anytime.
Football.

da, mənəvi və psixoloji cəhətdən qapıçı bir addım öndədir.

**- Futboldan kənar həyatında hobbin və ya məşğuliyyətin nələrdir?**
- Daha çox futbola köklənidiyimiz üçün demək olar ki, başqa şeylərə vaxt qalmır. Boş vaxtım olan kimi dostlarla, tanışlarla görüşürük, söhbətləşirik. Əlbəttə, əsas ailəyə vaxt ayırırıq.

**- İndiyədək bir çox məşqçi ilə çalışmısan. Səlahət Ağayev olmağında hansı məşqçinin daha çox rolu olub?**
- İnsan hər yaşda öyrənməyə meyllidir. Təbii ki, mən də uşaq yaşlarımdan bugünədək bir çox məşqçi ilə işləmişəm, hərəsindən bir şey götürmüşəm Bu günə gəlib çıxmağımda zərrə qədər də olsa əməyi olan hər bir məşqçimə təşəkkür edirəm. Ancaq bir insan var ki, onu xüsusilə qeyd etməliyəm. Bu, uşaq yaşlarımdan mənə inanan, dəstək olan Cəmaləddin Əliyevdir. Məhz onun sayəsində çox şey öyrənmişəm.

**- Təcrübəli qapıçı kimi qapıçılığa yeni başlayan gənclərə nə məsləhət görərdin?**
- Dediyim kimi, işlərinə məsuliyyətlə yanaşsınlar, üzərilərində daim işləsinlər, həvəsdən düşməsinlər, öyrənməyə meylli olsunlar. Məncə, bunlara əməl etsələr, yaxşı karyera qura bilərlər.

## “QƏLƏBƏ KOMANDADA ÖZÜNƏ İNAMI ARTIRMIŞDI”

**- Ən sonda millinin AÇ-nin seçmə mərhələsindəki son iki oyunu ilə bağlı fikirlərin necədir?**
- Estoniya üzərində səfərdə əldə etdiyimiz qələbə komandada özünə inamı artırmışdı. Məhz bu istəklə, bu həvəslə, özünəinamla Avstriya qarşısına çıxdıq. Yaxşı mübarizə aparıb, təhlükəli vəziyyətlər yaratsaq da, təəssüf ki, penaltidən buraxdığımız qolla məğlub olduq. Qarşıda bizi qrupun son iki oyunu gözləyir. Əlbəttə, istənilən rəqibə qarşı oynamaq, mübarizə aparmaq çətindir. Çalışacağı ki, İsveçlə oyunda azarkeşlərimizi sevindirək. Bu, evdə keçirəcəyimiz son oyun olacaq. Meydandan qələbə ilə ayrılmaq istəyirik. Daha sonra isə Avropa çempionatının finalına vəsiqə qazanmağı təmin edən, qrupun lideri Belçika yığması ilə qarşılaşacağıq. Uğurlu nəticə qazanmaq üçün son dəqiqəyədək mübarizə aparmalıyıq, meydanın hər bir qarışı uğrunda “döyüşməliyik”.




BONA DEA
HOSPITAL
SAĞLAMLIĞIN GƏLƏCƏYİ
ARTIQ
AZƏRBAYCANDA
BAKIDADIR!
BONA DEA
HOSPITAL

# “Elite Club Programme” təhsil layihəsinə start verilib




AFFA və UEFA Akademiyasının birgə əməkdaşlığı çərçivəsində “Baku Marriott Hotel Boulevard” hotelində “Elite Club Programme” təhsil layihəsinə start verilib. Seminarda AFFA-nın, PFL-in və Misli Premyer Liqasında mübarizə aparan klubların nümayəndələri iştirak edir. Üç sessiyadan ibarət proqramın 1-ci sessiyasında aşağıda qeyd olunan mövzular ətrafında seminar keçirilib:

İdarəetmə (dünya futbolunun təşkili; idarəetmə strukturu; qaydaların tənzimlənməsi və onlara əməl edilməsi);
Liderlik (liderlik üslubları, qərar vermə və problemin həlli bacarıqları; dəyişkən və yüksək stressli mühitdə idarəçilik);
Marketing (brendin yaradılması və inkişaf etdirilməsi; sponsorluq; azarkeşlərin cəlb edilməsi; tədbir marketingi və təşviq; rəqəmsal marketinq).

Qeyd edək ki, proqramın əsas məqsədi Premyer Liqa klublarının klub idarəçiliyi sahəsindəki biliklərinin artırılması və təkmilləşdirilməsidir. Layihə üç mərhələdən ibarət olacaq. Proqramın növbəti – ikinci sessiyası 5-10 dekabr tarixlərində Almaniyanın Frankfurt, üçüncü – sonuncu sessiyası isə 2024-cü ilin 7-9 fevral tarixlərində Bakı şəhərində keçiriləcək.

# “Playmakers” layihəsi çərçivəsində seminar keçirilib

AFFA-nın təşkilatçılığı, UEFA-nın dəstəyi ilə təşkil olunan “Playmakers” layihəsinə yeni cəlb olunan məşqçi-müəllimlər üçün seminar keçirilib. AFFA-nın Təhsil və Reabilitasiya Mərkəzində keçirilən seminara 20-dən çox məşqçi-müəllim cəlb olunub. “Playmakers” layihəsinin təlimatçıları Gülyana Özcan və Namiq Cəfərov tərəfindən keçirilən seminarda iştirakçılara layihə haqqında ümumi məlumat verilib. Seminar nəzəri və praktiki hissələrdən ibarət olmaqla keçirilib







# Azərbaycan Kubokunun püşkü atılıb

“Hyatt Regency” hotelində Azərbaycan Kuboku uğrunda yarışın 2023/24-cü illər mövsümünün püşkü atılıb. 34 komandanın iştirakı ilə keçiriləcək yarış II Liqada mübarizə aparan komandaların iştirakı ilə birinci təsnifat mərhələsindən başlayacaq. Qalib komandalar növbəti raundda I Liqa və ötən mövsüm Misli Premyer Liqasının aşağı pillələrində qərarlaşan kollektivlərlə üz-üzə gələcəklər. Növbəti – 1/8 final mərhələsində isə Premyer Liqanın digər komandaları mübarizəyə qoşulacaqlar. 1/4 final mərhələsindən etibarən oyunlarda ev-səfər prinsipi tətbiq olunacaq.







# AFFA-nın təşkilatçılığı ilə Tərbiyə müəssisəsində yoldaşlıq oyunu keçirilib

8 Noyabr - Zəfər Günü və Şuşa şəhəri günü münasibətilə AFFA-nın təşkilatçılığı ilə Ədliyyə Nazirliyi Penitensiar xidmətin Tərbiyə müəssisəsində mini-futbol üzrə yoldaşlıq oyunu keçirilib. "Qarabağ" futbol klubunun 15 yaşlılardan ibarət komandası ilə yeniyetmə məhkumlardan ibarət komanda arasında baş tutan görüşü Penitensiar xidmətin rəis müavini ədliyyə general-mayoru Orxan Qasımov, AFFA-nın baş katibi Sərxan Hacıyev, "Qarabağ" futbol klubunun baş direktoru Emrah Çelikel, eləcə də iştirak edən qurumların digər məsul şəxsləri izləyib. Oyundan sonra Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının və "Qarabağ" futbol klubunun nümayəndələri tərəfindən yeniyetmələrə hədiyyələr təqdim edilib. Tədbirin sonunda xatirə şəkli çəkdirilib.







# "Araz Naxçıvan" "Zəfər" turnirinin qalibi olub

AFFA, PFL və Misli Premyer Liqa klublarının əməkdaşlarından ibarət komandaların iştirakı ilə "Zəfər" turnirini keçirilib. Turnirin ilk yarımfinal oyununda "Sumqayıt" üzərində 3:2 hesablı qələbə qazanan "Neftçi" finala vəsiqə qazanıb. Yarımfinalın digər qarşılaşmasında "Araz Naxçıvan" "Sabah"ı 5:1 hesabı ilə məğlub edib. Həlledici görüşdə qarşılaşan "Araz Naxçıvan" və "Neftçi" komandalarının oyununda əsas vaxt heç-heçə nəticələnib - 3:3. Penaltilər seriyasını daha dəqiq yerinə yetirən "Araz Naxçıvan" turnirin qalibi olub. "Sumqayıt" isə "Sabah"ı 5:4 hesabı ilə məğlub edərək 3-cü olub. Qalib komandaya kuboku veteran futbolçular - AFFA-nın Kütləvi Futbol Departamentinin rəhbəri Fərrux İsmayılov və Şamaxı Regional Futbol Məktəbinin koordinatoru Vəli Qasımov birlikdə təqdim edib.



# “Qol U-15” II Beynəlxalq turnir start götürüb

Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Qol U-15” II beynəlxalq futbol turnirinə start verilib. Gənclər və İdman Nazirliyi və AFFA-nın birgə təşkil etdiyi turnirdə 8 komanda mübarizə aparır. A qrupunda “Qarabağ”, “Turan-Tovuz”, “Sabah” və Belarusun “U15 Academy” komandası, B qrupunda isə “Neftçi”, “Zirə”, “Sumqayıt”, eləcə də Qırğızıstanın “İlbirs” komandası mübarizə aparırlar. Turnirə noyabrın 19-da yekun vurulacaq.







# Məşqçilərimiz “Fənərbağça” klubunun akademiyasında olublar

AFFA-nın təşkilatçılığı ilə azərbaycanlı məşqçilər Türkiyəyə səfər ediblər. “Qəbələ”nin və “Sabah”ın U-19 komandasında çalışan Zaur Hacıyevlə Saşa Yunisoğlu təcrübə keçmək məqsədilə “Fənərbağça” klubunun akademiyasında olublar. Bir həftə İstanbul klubunun düşərgəsində olan məşqçilərimiz akademiyanın iş prinsipi ilə yaxından tanış olub, fikir mübadiləsi aparıblar.

# AFFA təşəkkür edir

AFFA rəhbərliyi futbol ictimaiyyəti adından Azərbaycan futbolunun inkişafı istiqamətində xidmətlər göstərmiş, uzun illər milli komandanın şərəfini qorumuş, futbolçulara təşəkkür edir. Bu məqsədlə Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək Azərbaycan – İsveç oyunundan öncə peşəkar karyeralarını 2023-cü ildə sonlandırmış Əfran İsmayılov, Rauf Əliyev, Ruslan Abışov, Rahid Əmirquliyev, Elvin Məmmədov və milli komandada çıxışını başa vurmuş Riçard Almeydaya təşəkkür plaketi və milli komandanın forması təqdim ediləcək.